**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Çıxarış**

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" 2011-ci il 25 avqust tarixli 82 nömrəli, "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 8 dekabr tarixli 103 nömrəli, "Həbs edilmiş şəxslərin hava gəmisində daşınması Qaydası"nın təsdiq edilməsi barədə" 2013-cü il 15 avqust tarixli 83 nömrəli, "Jurnalistlərin Naxçıvan Muxtar Respublikası ərazisində cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Əlahiddə Ümumqoşun Ordusu ilə razılaşdırılması Qaydası"nın təsdiq edilməsi barədə" 2015-ci il 11 sentyabr tarixli 61 nömrəli, "Naxçıvan Muxtar Respublikasında müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə"nin təsdiq edilməsi haqqında" 2016-cı il 18 iyul tarixli 71 nömrəli, "Poçt göndərişlərində göndərilməsi qadağan olan malların və əşyaların Siyahısı"nın və "Poçt göndərişlərinin saxlanması, açılması, satışı və məhv edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında"2021-ci il 6 mart tarixli 56 nömrəli, "Naxçıvan Beynəlxalq Hava Limanında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonunun xidmətlərindən istifadə məsələləri haqqında" 2021-ci il 12 noyabr tarixli 237 nömrəli, "Naxçıvan Muxtar Respublikasında elektrik enerjisindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" 2022-ci il 12 avqust tarixli 168 nömrəli qərarlarında və 2011-ci il 12 noyabr tarixli**

**88s nömrəli Sərəncamında dəyişiklik edilməsi, “Naxçıvan Muxtar Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması ilə təmin edilməsi normaları”nın təsdiq edilməsi haqqında” 2018-ci il 9 oktyabr tarixli 166 nömrəli və “Naxçıvan Muxtar Respublikasında mülki aviasiyanın hava gəmilərinin zəbt edilməsi və qaçırılması cəhdlərinin qarşısının alınması üzrə İdarələrarası Əməliyyat Qərargahının Əsasnaməsinin və tərkibinin təsdiq edilməsi haqqında” 2019-cu il 24 oktyabr tarixli 156 nömrəli qərarlarının ləğv edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi və bəzi fərman və sərəncamlarının ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 10 mart tarixli 152-VI FR nömrəli Fərmanının 3-cü hissəsinə əsasən Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli 82 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci və 2-ci hissələrdən “dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidməti,” sözləri çıxarılsın;

1.2. 4.3-cü bənddən “dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri,” sözləri çıxarılsın;

1.3. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidməti, hüquq mühafizə və prokurorluq orqanlarında xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri istisna olmaqla) xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələri üçün aylıq yürüş həddi və istismar xərclərinin normaları”nın adından, 1-ci və 3-cü hissələrindən “dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidməti,” sözləri çıxarılsın;

1.4. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidməti, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün

xidməti minik avtomobillərinin say həddi (limiti)” cədvəlinin adından “dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidməti,” sözləri çıxarılsın.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın 11.4-cü bəndindən “, təhlükəsizliyinin təmin edilməsi həmin Nazirliklə birgə Naxçıvan Muxtar Respublikasının Milli Təhlükəsizlik Nazirliyi” sözləri çıxarılsın.

5. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 iyul tarixli 71 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə”nin 2.1-ci bəndinin beşinci abzasından “Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti,” sözləri çıxarılsın.

6. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 mart tarixli 56 nömrəli Qərarı ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Poçt göndərişlərində göndərilməsi qadağan olan malların və əşyaların Siyahısı”nın 2.24-cü bəndindən “, Dövlət Təhlükəsizliyi Xidmətinin” sözləri çıxarılsın.

8. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında elektrik enerjisindən istifadə Qaydaları”nın 9.11.6-cı yarımbəndindən “orqanların -” sözü və “və Dövlət Təhlükəsizliyi Xidmətinin” sözləri çıxarılsın.

11. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “20” aprel 2023-cü il

№ 69